# 10 may ümummilli lider Heydər Əliyevin doğum günüdür

## Tariximizin ən şərəfli səhifəsinin xilaskarı

*Ötən əsr Azərbaycan üçün mürəkkəb, ziddiyyətli və taleyüklü proseslərlə səciyyələnən dövr kimi tarixə qovuşmuşdur. Tarix həm də dünyaya fenomen şəxsiyyətləri bəxş edir, onların izini daşıyır, şəxsiyyətlər isə tarixi yaradır.*

*Təbiidir ki, zamandan səmərəli yararlanmaq, onu xalqın, millətin inkişafına, gələcəyinə, dövlətin möhkəmləndirilməsinə yönəltmək missiyası şəxsiyyətlərin fəaliyyəti, adı ilə bağlı olur. Heydər Əliyev dühası da bu cür şəxsiyyət kimi tarixə qovuşmuşdur.*

*Ulu öndərimizin Azərbaycanın tarixi, arxeologiyası, etnoqrafiyası, mədəniyyəti qarşısında göstərdiyi geniş spektrli fəaliyyətinin Qəbələ ilə bağlı bir anının oxucularımız üçün maraqlı olacağını nəzərə alaraq dərc edirik. Yazının hazırlanmasında akademik Teymur Bünyadovun və professor Bəhmən Əliyevin fikirlərinə istinad olunmuşdur.*

Qafqaz Albaniyasının paytaxtı qədim Qəbələ şəhəri Azərbaycan tarixinin, arxeologiyasının, etnoqrafiyasının, mədəniyyətinin ən şərəfli səhifəsidir.

Artıq neçə illərdir ki, qədim şəhərin ərazilərində arxeoloji qazıntılar aparılır, tədqiqat işləri genişləndirilir, tariximiz daha dərindən öyrənilir. Bu tarix təkcə dilsiz, səssiz-səmirsiz daşlardan, müxtəlif arxeoloji materiallardan ibarət deyil. Bu tarix milli kimliyimizin təsdiqi kimi danışır, əsrlərin sirlərini gözümüzün önündə canlandırır. Qədim Qəbələ şəhəri hər bir azərbaycanlının milli tariximizlə bağlı dünyagörüşünün mühüm tərkib hissəsi, fəxr yeri, xalqımızın tarix boyu apardığı mübarizənin, yaratdığı mədəniyyətin, inkişaf etmiş sosial həyatının, təsərrüfatının, sənətkarlığının və s. təsdiqidir.

Qədim abidəmiz həm də müasir milli mübarizə tariximizin söykəndiyi qala, milli özünüdərkin inkişafında mühüm mərhələlərdən biridir. Ulu öndər Heydər Əliyevin səyi, millətə xidməti, uzaqgörənliyi sayəsində qədim Qəbələ şəhəri indi də tariximizin dərinliklərindən xəbər verir, biz Azərbaycanın qədim şəhər mədəniyyətini, dövlətçilik tarixini bütün dünyaya göstərə bilirik. Xüsusilə qeyd etmək lazımdır ki, Heydər Əliyev Azərbaycana birinci dəfə rəhbərlik etdiyi dönəmdə də SSRİ üçün xarakterik olan sərt ideoloji çərçivəyə baxmayaraq ölkəmizdə qədim mədəniyyətimizin öyrənilməsi, arxeoloji, etnoqrafik tədqiqatların aparılması işinə böyük diqqət yetirilmişdir. Elə həmin dövrdə də qədim Qəbələ şəhərinin yerində arxeoloji tədqiqatlar genişləndirilmişdir.

Lakin ötən əsrin 70-ci illərinin sonunda qədim paytaxtımızın taleyi ciddi sınaq qarşısında qalmışdı. Keçmişi ilə fəxr edən gələcək öz keçmişini qorumalı, dağılmaqdan, məhv olmaqdan xilas etməlidir.

Ötən əsrin 70-ci illərində Azərbaycanın, eləcə də Qəbələnin həyatında çox ciddi və təhlükəli hadisələrdən biri təkcə keçmiş Sovet İttifaqında deyil, bütün dünyada çox məşhur olan radiolokasiya stansiyasının tikintisi ilə bağlı idi. O vaxtkı SSRİ silahlı qüvvələrinin ən güclü radiolokasiya stansiyalarından biri 1976-cı ildə Qəbələ rayonu ərazisində inşa edilməyə başlanmışdı.

SSRİ silahlı qüvvələrinin rəhbərliyi bu stansiyanın tikintisinə xüsusi diqqət yetirirdi. Dünyanın siyasi-ideoloji-hərbi cəbhələrə bölünüb mübarizə apardığı bir zamanda RLS-in tikintisinə hansısa formada əngəl törədilməsi, irad bildirilməsi ağlasığmaz, qeyri-mümkün sayılırdı. Elə radiolo-



kasiya stansiyasının hərbi göstəricilərini, imkanlarını sadalamaq kifayət idi ki, bu tikintinin dünyanın qorxu ilə baxdığı sovet ordusu üçün nə qədər böyük əhəmiyyət daşıdığını görəsən.

Qəbələ radiolokasiya stansiyası SSRİ-də yaradılmış ən güclü raket hücumu xəbərdarlığı stansiyası idi. RLS qurudan və dənizdən atılan ballistik raketləri qeydə alır, kosmosa, o cümlədən buradan Yer planetinin 6 min kilometr radiusda məsafəsinə nəzarət edirdi.

Keçmiş SSRİ-nin Qəbələ rayonu ərazisində yerləşən bu hərbi obyektinə 1977-ci ildə Mingəçevir Su Elektrik Stansiyasından yüksək gərginlikli elektrik xətti çəkilirdi. Elektrik xətti qədim Qəbələ şəhərinin ərazisindən keçməli idi. Sovet generalları, hərbi mühəndisləri o dövrdə stansiyaya yüksək gərginlikli elektrik xətti çəkilməsini planlaşdırarkən xalqımızın tarixini, qədim abidələrini nəzərə almırdılar. Elektrik xəttinin bir neçə qurğusunun tikintisi qədim Qəbələ şəhərinin ərazisinə, o cümlədən Qala qapıları və bürcləri üzərinə düşürdü. Baş verənlərin təsadüf, planlaşdırma xətası və s. olmasını düşünmək sadəlövhlük olardı. Çünki xəttin başqa yerlə çəkilməsi, qurğuların bürclərdən xeyli uzaqda tikilməsi üçün digər imkanlar da var idi. Beləliklə, qədim şəhərin qalıqlarının məhv olması, tariximizin daha bir əvəzsiz abidəsinin yer üzündən silinməsi təhlükəsi yaranmışdı.

Ən təhlükəli məqamlardan biri də bu idi ki, radiolokasiya stansiyasına gedən elektrik xətləri, qurğular, geniş torpaq sahələri ordunun mühafizəsi altına verilirdi, qadağa zonasına çevrilirdi. Bu da qədim Qəbələnin Qala və Səlbir hissələrində hər hansı arxeoloji tədqiqatın aparılmasının qarşısının alınması, gənc nəslin qədim tariximizlə tanış olması imkanlarının əldən çıxması demək idi.

Sovet dövrünün acı reallıqlarından xəbərdar olanlar bilirlər ki, uzun illər sovet ordusunun nəzarətində olan geniş torpaq sahələri istifadəsiz qalmış, neçə-neçə tarixi abidələrimiz vaxtında tədqiq olunmamış, nəticədə dağılaraq sıradan çıxmışdır.

Qazıntı məskəninin sovet ordusunun nəzarətinə verilməsi, qadağa zonasına düşməsi arxeoloji tədqiqatların demək olar ki, tamamilə dayanmasına gətirib çıxara bilərdi. Baş verənlər arxeoloqların qədim qazıntı yerində işləməsinə ciddi maneçilik törədirdi. Vəziyyəti belə görən arxeoloqlar, Qəbələ ziyalıları birbaşa Heydər Əliyevə müraciət etmişdilər. Bu məsələ ilə əlaqədar SSRİ Hərbi Hava Qüvvələrinin komandanı ilə ciddi söhbət aparan ulu öndər Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri Qurban Xəlilov başda olmaqla Qəbələyə nüfuzlu komissiya göndərmişdi. Komissiyanın məsələ ilə yaxından tanış olması, problemi həll etmək üçün aparılan gərgin müzakirələr, Azərbaycan rəhbərliyinin tarixi abidənin qorunması üçün göstərdiyi səy müsbət nəticə vermişdir. Heydər Əliyevin tariximizin, qədim abidələrimizin qorunması üçün ortaya qoyduğu milli mövqe sayəsində bu gün Azərbaycan xalqı Qəbələ şəhərinin simasında qədim tariximizin yaşadığını görür, fəxr edir.

17 yanvar 1978-ci ildə Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan KP MK-nın bürosunda məsələ müzakirəyə çıxarılmış və qədim Qəbələ şəhərinin xilas olunması ilə bağlı mühüm qərar qəbul olunmuşdur. Bununla da, tariximizin minillikləri əhatə edən abidələrindən biri dağıdılmaqdan xilas edilmiş, qərara uyğun olaraq, elektrik xətti cənub qapılarından, Qala bürclərindən uzaqlaşdırılmış, abidənin yuyulması üçün təhlükə yaratmış Corluçayın və Qaraçayın kənarlarına bənd çəkilmiş, arxeoloji tədqiqatlar genişləndirilmişdir.

Ulu öndərin göstərişi ilə 1978-ci il mart ayının 2-də Azərbaycan SSR Nazirlər Soveti Qəbələ Tarix Mədəniyyət Qoruğunun yaradılması haqqında qərar vermişdir. Bu tarix-mədəniyyət qoruğunun yaradılması XX əsrin sonlarına doğru Azərbaycanda milli mədəniyyət abidələrinin, tarixi abidələrimizin qorunması istiqamətində əvəzsiz yeniliklərdən biri idi.

Ən mühüm addımlardan biri 1978-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan SSR Ali Sovetinin səkkizinci sessiyasında "Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə haqqında" Azərbaycan SSR Qanunu layihəsi barədə geniş müzakirələrin keçirilməsidir. Müzakirələr zamanı Azərbaycanın qədim tarixi abidələrinin, o cümlədən Qafqaz Albaniyası məbədlərinin, memarlıq abidələrinin qorunması məsələsi gündəmə gətirilmişdi. Heydər Əliyevin təşəbbüsü ilə keçirilən bu müzakirələr əslində, SSRİ hərbi sənaye kompleksinin Qəbələ RLS-in tikintisi zamanı qədim qala divarlarını, Qafqaz Albaniyası abidələrini dağıtmaq cəhdinə ciddi bir etiraz olmaqla yanaşı gələcəkdə bu cür halların baş verməsinin qarşısına sədd çəkirdi.

21 iyul 1978-ci ildə isə "Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə haqqında" qanun qəbul olundu. Sənəddə qanunvericiliyi pozmağa görə məsuliyyət nəzərdə tutulurdu.

Onu qeyd etmək lazımdır ki, Heydər Əliyev 1978-ci ildə Qəbələyə səfər etmiş və bu səfər rayonun həyatında inkişafa, mühüm dəyişiklərə stimul vermişdir. Ulu öndərin rayona gəlişindən sonra burada bir sıra müəssisələrin təməli qoyulmuş, 1980-1981-ci illərdə Şəki-Qəbələ-İsmayıllı şose yolu çəkilmiş, böyük körpülər tikilmişdir. Bu şose Qəbələdən Bakıya gedən yolun 100 kilometr qısalmasını təmin etmişdir. Ümummilli liderin şəxsi təşəbbüsü ilə Qəbələdə 1980-ci il mayın 15-də tarix-diyarşünaslıq muzeyi, bir qədər sonra İsmayıl bəy Qutqaşınlının xatirə ev-muzeyi yaradılmışdır.

...Tarix millətin varlığıdır, tarixi abidələr isə milli varlığın maddiləşmiş nümunələridir. Ümummilli lider Heydər Əliyevin vətənpərvərliyi, əzmkarlığı, qətiyyəti sayəsində 1978-ci ildə qədim Qəbələnin dağılmaqdan qorunması tariximizin ən şərəfli səhifələrindən biridir.

**"Qəbələ"**

## Məktəblilər ulu öndər Heydər Əliyevin irsini öyrənirlər

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü ərəfəsində onun zəngin irsinin öyrənilməsi məqsədilə rayonumuzun məktəblilərinin Heydər Əliyev Mərkəzinə ekskursiyaları daha intensiv xarakter almışdır.



Məktəblilər ekspozisiya zalında dahi rəhbərin zəngin həyat yolunu və çoxşaxəli siyasi fəaliyyətini əks etdirən eksponatlarla, foto və kitablarla tanış olurlar. Ekskursiya iştirakçılarına ulu öndərin həyat və fəaliyyəti, siyasi irsi, xalqımız və dövləçiliyimiz qarşısında tarixi xidmətləri barədə ətraflı məlumat verilir, ümummilli lider Heydər Əliyevin çoxşaxəli fəaliyyətinin yalnız Azərbaycan xalqının işıqlı gələcəyi üçün xidmət etməkdən ibarət olduğu məktəblilərin diqqətinə çatdırılır. Azərbaycanın inkişaf və tərəqqi yolunun sarsılmaz təməlinin ulu öndər tərəfindən qoyulduğu, bu gün həmin əsaslar üzərində Prezident İlham Əliyevin rəhbərliyilə ölkəmizdə bütün sahələrdə parlaq nəticələr əldə olunduğu faktlarla ekskursiya iştirakçılarına bildirilir.

**"Qəbələ"**